Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 28.10.2022 -ci il tarixli 22020055974 nömrəli əmri ilə təsdiq edilmişdir

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı**

1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra-Məcəllə) 192.1-192.11, 193, 198.1, 199, 200, 201, 202, 203, 205-1.1, 469.2, 539, 555, 556-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - əmək və əhalinin sosial müdafiəsi naziri, onun müavinləri, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi, onun müavinləri, Xidmətin aparatın şöbələrin müdirləri, Xidmətin regional bölmələrinin rəisləri, onların müavinləri.

2. Məcəllənin 194, 477-ci, 477-1.1.2, 477-1.1.4, 477-1.1.5, 477-1.2, 540.1-540.4 və 576-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - əmək və əhalinin sosial müdafiəsi naziri, onun müavinləri, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri, onun müavinləri, regional məşğulluq filiallarının direktorları, onların müavinləri.

3. Məcəllənin 191.2, 195.2,  və 477-2.1-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - əmək və əhalinin sosial müdafiəsi naziri, onun müavinləri, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyətinin sədri, onun müavinləri, Fondun Aparatının şöbə müdirləri, müdir müavinləri, Fondun filial və nümayəndəliklərinin rəhbərləri, və onların müavinləri.